# Quba bölgəsinin ağrılı-acılı tarixindən və ya 145 yaşlı Əli bəy



**Cabir Alpoğlu Albantürk**

şair, publisist, AYB üzvü

**Aprelin sonu - mayın əvvəlində S.Şaumyan və G.Korqanovun göstərişi ilə daşnak Hamazaspın başçılığı ilə Qubaya yeni daşnak-bolşevik qüvvələri yeridildi. Əvvəl David Gelovani bolşevik qılıfıyla varlı əhalini soyub-talamış, həbsdə olan erməniləri açıb buraxmış, şəhər əhlindən müqavimət göstərənləri "cəzalandırmış"dısa, daşnak Şirvanyans Hamazasp şimal bölgəsində xüsusi qəddarlıqla qətliam törətmiş, 3-4 gün ərzində 4 minədək müsəlmanı soyqırıma məruz qoymuşdu. 1918-ci il mayın 1-dən 10-a kimi erməni cəlladı Hamazasp təkcə Quba şəhərində 1500 nəfərdən çox insanı qətlə yetirir və onların cəsədlərini dəfn etməyə belə icazə vermir**

(əvvəli ötən sayımızda)

***Əli bəyin aradan götürülməsi üçün Qubada yaşayan casuslar - Armik və Haykanuş adlı ermənilərə tapşırıq verilir. Amma bir şərtlə, Əli bəy bir müsəlmanın əli ilə öldürülməli idi. Amma sui-qəsd cəhdləri dəfələrlə boşa çıxmışdı... Əli bəy Oktyabr çevrilişindən (1917) sonra Quba qəzasının Bakı Sovetinin nəzarətinə keçməsinin qarşısını almağa çalışmışdı.***

1918-ci ilin mart ayından Şaumyanın başçılığı altında ermənilər Azərbaycanda genişmiqyaslı soyqırım planı həyata keçirməyə başladılar. Mart ayının sonlarından Bakıda törədilən amansız qətliam artıq bölgələrə doğru genişlənirdi. Əli bəy Quba qəzasında milli şura rəhbərləri və dəstə başçılarını toplayaraq 1500 nəfərlik dəstə ilə daşnak-bolşevik qüvvələrinə qarşı mübarizəyə başladı. Şabrandan Həmdulla əfəndi Əfəndizadə, Qusardan molla Möhübəli Kuzunvi, Hatəm ağa Cağarvi, Qonaqkənddən Mayıl ağa Zahirov, Alpanlı Bəybala bəy Qayıbov, Şıxlar bəyləri Əli bəyin ətrafında sıx birləşdilər. 1500 nəfərlik ordu ilə Bakı üzərinə yürüş başladığdan sonra Dağıstandan Nəcməddin Qotsinski də öz qüvvələri ilə Əli bəyin köməyinə gəlir. Qotsinski və Zizikskinin silahlı dəstələri daşnak-bolşevik birləşmələrinin Biləcəri-Xırdalan müdafiə xəttinə qədər yaxınlaşmış, ilk toqquşmada onları məğlubiyyətə uğradıb, şəhər üzərinə son hücum hazırlığına başlamışdır. Lakin Həştərxandan Xəzər dənizi vasitəsilə göndərilən çoxsaylı bolşevik hərbi qüvvələrinin Bakıya çatması ilə qüvvələr nisbəti dəyişmiş və onlar tutduqları mövqeləri tərk etməli olmuşlar. 1918-ci il aprel ayının 8-dən bolşeviklərlə Xırdalan qəsəbəsi yaxınlığında 3 gün davam edən döyüşdən sonra sursatı tükənən Əli bəy Zizikski və ətrafındakılar dəstələrindən sağ qalanlarla birgə geri çəkilməyə məcbur oldu.

1918-ci ilin aprelində Bakı Soveti Quba üzərinə əks-hücum təşkil edərkən Həmdulla Əfəndi Əfəndizadə və başqalarının rəhbərlik etdiyi müsəlman birləşmələri yolları kəsib şəhəri Bakı Sovetinin qüvvələrindən müdafiə etmişdirlər.

***Aprelin sonu - mayın əvvəlində S.Şaumyan və G.Korqanovun göstərişi ilə daşnak Hamazaspın başçılığı ilə Qubaya yeni daşnak-bolşevik qüvvələri yeridildi. Əvvəl David Gelovani bolşevik qılıfıyla varlı əhalini soyub-talamış, həbsdə olan erməniləri açıb buraxmış, şəhər əhlindən müqavimət göstərənləri "cəzalandırmış"dısa, daşnak Şirvanyans Hamazasp şimal bölgəsində xüsusi qəddarlıqla qətliam törətmiş, 3-4 gün ərzində 4 minədək müsəlmanı soyqırıma məruz qoymuşdu. 1918-ci il mayın 1-dən 10-a kimi erməni cəlladı Hamazasp təkcə Quba şəhərində 1500 nəfərdən çox insanı qətlə yetirir və onların cəsədlərini dəfn etməyə belə icazə vermir.***

Zizikski də düşmənin sayca üstün olan və yaxşı silahlanmış qüvvələrinə müqavimət göstərə bilməyib, Dağıstana keçməyə məcbur olur. Türkiyədən Dağıstana göndərilmiş zabitlərin və Dağıstandakı yerli əhalinin köməkliyi ilə yeni hərbi dəstə yaradan Ə.Zizikski Ş.Amazaspın daşnak-bolşevik dəstələrinə qarşı güclü hücum təşkil etmək və şəhərin daşnaklardan təmizlənməsi məqsədi ilə yerli dəstə başçıları - Mayıl ağa Zahirov (Qaçaq Mayıl), Qələgahlı Həmdulla əfəndi, molla Möhübəli Kuzunlu, Hatəm ağa Cağarlı, Mehdi Aydayev, Şıxlar bəyləri, Bəybala bəy Alpanski və b. ilə Zizik kəndi ərazisində müşavirə keçirir və Qubaya hücum planı hazırlanır.

May ayının 12-si 14-ü arısında şəhərə müxtəlif istiqamətlərdən hücum təşkil edilir. Nügədi kəndi istiqamətindən qonaqkəndli Qaçaq Mayılın dəstəsi, Çiçi istiqamətindən Qələgahlı Həmdulla əfəndi silahdaşları ilə irəliləyir, Digah kəndi istiqamətindəki Dağıstan, Qusar və Qubanın birləşmiş qüvvələrinə isə polkovniklər Əli bəy, Hətəm ağa və Türk zabitləri komandanlıq edirdi. Müslüman Milli müqavimət dəstələri mayın 4-ü və 14-ü gedən döyüşlərdə, Digahla "Cuhud sirti" və Xucbala kəndi arasındakı dərələrdə 100-dən çox canlı qüvvə şəhid vermək hesabına düşməndən qisas alsalar da məğlubiyyətə uğrayır, ta Qusar kəndlərinə, dağlarınadək geri çəkilməli olurlar. Quba şəhər rəisi Əliabbas bəy Əlibəyovun izahatında göstərildiyi kimi, Amazasp Quba meydanında yerli əhali qarşısındakı 4 may çıxışında demişdi: "... Hazırda mənim Digah və Alpan kəndlərində döyüşlərim gedir. Sonra Üçgün və Küsnət kəndlərinə keçərək sizləri odlara yaxacaq və Şahdağa çatacağam. Onda başa düşərsiniz ki, erməniləri öldürmək nə düməkdir". Burada bir haşiyə çıxaraq onu da bildirək ki, Digah kəndinin Quba tərəfindəki dərədə 2 dəfə -1918-ci ilin 4-5 mayında və 14 mayda erməni-daşnak soyqırımçı dəstələr ilə, indi "Qanlı dərə" adlanan Qusar tərəfində isə 14 və 18 mayda daşnak-bolşevik birləşmiş qüvvələri ilə, 6-7 iyulda bolşevik Rusiyasının idarə etdiyi rüs, erməni, yəhudi, gürcü və aldanmış, güya beynəlmiləlçi qüvvələrdən ibarət silahlı dəstələr ilə döyüşlər olmuşdur.

***Polkovniklər Əli bəy Zizikskinin, Hətəm ağa Caqarvinin, Şükrü albayın və Şıxlar bəylərinin başçılıq etdiyi milli-müsavatçı müqavimət dəstələri üç savaşda demək olar ki məqlub olaraq xeyli itki verdiyindən, əvvəllər 'Kollu dərə, sulu dərə" adlanan həmin dərə sonralar 'Qanlı dərə" adıyla tanınmışdır. 1918-ci ilin 14 mayında olan döyüşlər günortaya kimi Digahın Quba tərəfindəki dərənin ərazisində, günortadan sonra isə Digah kəndinin Xucbala (Nikolayevka) tərəfindəki dərə-təpəlik ərazidə baş vermişdir. Nəhayət, 1918-ci ilin 18 mayında bütün Quba, Qusar, Xaçmaz, Şabran və Dağıstan mücahidləri birləşərək 3 tərəfdən əks-hücuma keçib lənətlik Amazapsın qatillərinə son zərbələri edirməklə əksəriyyətini məhv edir, qaniçənlərin az bir hissəsi qaçıb Qubanı tərk edərək Bakıya üz tuturlar.***

**Quba şəhər rəisi Əliabbas bəy Əlibəyovun izahatında göstərildiyi kimi, Amazasp Quba meydanında yerli əhali qarşısındakı 4 may çıxışında demişdi: "... Hazırda mənim Digah və Alpan kəndlərində döyüşlərim gedir. Sonra Üçgün və Küsnət kəndlərinə keçərək sizləri odlara yaxacaq və Şahdağa çatacağam. Onda başa düşərsiniz ki, erməniləri öldürmək nə dümədkir"**





(davamı gələn sayımızda)